**Tütün epidemiyası və qlobal tütünlə  mübarizə barədə 10 fakt**

## Fakt 1

Tütün epidemiyası hər il ağ ciyərlərin xərçəngi, ürək xəstəlikləri və  başqa səbəblərdən 5.4 milyon insanı öldürür. Qarşısı alınmadığı halda, bu rəqəmlər 2030-cu ilədək ildə 8 milliona çata bilər. Tütündən istifadə dünyada səkkiz aparıcı ölüm səbəblərindən altısı üçün risk faktorudur.

## Fakt 2

Faciəlidir ki, epidemiya inkişafda olan ölkələrə tərəf irəlləyir, bir neçə onillilər ərzində bütün tütünlə əlaqəli ölümlərin 80%-i burada baş verib. Bu irəliləyiş qlobal tütün sənayesinin inkişafda olan ölkələrdə cavan və yetkinlik yaşına çatmış insanları hədəfə alan marketinq strategiyası ilə əlaqəlidir. Əlavə olaraq, hal-hazırda qadınların əksəriyyəti tütündən istifadə etmədiynə görə, tütün sənayesi onları yeni potensial istehlakçı kimi seçərək, onlara tərəf təcavüzkarlıqla irəliləyir.

## Fakt 3

Tütün epidemiyası insan tərəfindən yaradılıb və tamamilə qarşısı alına biləndır. Lakin, hal-hazırda dünyada yaşayan insanların yalnız 5%-i öz əhalisini tütünün istifadəsini mühüm dərəcədə azaldan hər-hansı həyata keçirilən əsaslı siyasi müdaxilə vasitəsilə tam qoruyan ölkələrdə yaşayır.

## Fakt 4

Tütün epidemiyasını  dayandıra bilən altı ən səmərəli siyasət ÜST-nin MPOWER strategiyasında əks etdirilir:

**M**onitoring tobacco use and prevention – tütün istifadəsinin monitorinqi və qarşının alınması
**P**rotecting people from tobacco smoke – insanların tütün tüstüsündən qorunması
**O**ffering help to quit tobacco use – tütündən imtina üçün yardım təklifləri
**W**arning people about the dangers of tobacco – tütün təhlükələri barədə insanların xəbərdar edilməsi
**E**nforcing bans on tobacco advertising, promotion and sponsorship – tütünün reklamına, stimullaşdırılmasına və sponsorluğuna qoyulan qadağaların gücləndirilməsi
**R**aising taxes on tobacco – tütün məmulatlarına qoyulan vergilərin artırılması

## Fakt 5

**MPOWER, siyasət 1:** tütün istifadəsinin monitorinqi və qarşının alınması
Tütündən istifadənin və onun təsirinin qiymətləndirilməsi gücləndirilməlidir. Hal-hazırda,dünya ölkələrinin yarısı, yəni inkişafda olan üç ölkələrdən ikisi gənclərin və böyüklərin tütündən istifadəsi barədə minimal məlumatlara belə malik deyillər.

## Fakt 6

**MPOWER, siyasət 2:** insanların tütün tüstüsündən qorunması

Dünya ölkələrin yarısından çoxunda ( dünya əhalisinin üçdə ikisi) hökümət idarələrində, iş yerlərində və başqa qapalı yerlərdə tütün çəkməyə icarə verilir. Bir neçə sənaye ölkələri tərəfindən keçirilən iş yerində tütündən azad siyasətlər işçilər arasında tütündən istifadəni orta hesabla 29% azaldıb.

## Fakt 7

**MPOWER, siyasət 3:** tütündən imtina üçün yardım təklifləri
Tütünün təhlükələri barədə məlumatlı olan tütün istifadəçiləri arasında dörd nəfərdən üçü tütündən imtina etmək istəyir. Tütündən asıllılığın hər tərəfli müalicəsi üçün xidmətlər dünyanın yalnız 5% əhalisi üçün mövcüddur. Tütün istifadəçiləri üçün öz istəyi ilə tütündən imtina etmək çətindir, buna görə də bir çox insan asılılıqdan qurtarmaq üçün dəstək və yardımdan istifadə edir. Tütündən asılılığın müalicəsi üçün cavabdehlik əsasən ölkələrin səhiyyə sistemlərinin üzərinə düşür.

## Fakt 8

**MPOWER, siyasət 4:** tütün təhlükələri barədə insanların xəbərdar edilməsi
Tütün məhsullarının üzərində olan qrafik xəbərdarlıqlar tütündən istifadəni azaldır, lakin yalnız dünya əhalisinin 6%-i yaşayan 15 ölkədə tütütn məmulatları qutularında əsas üz səthinin ən azı 30% hissəsini əhatə edən icbari şəkil xəbərdarlıqları mövcuddur.

Dünya əhalisinin 40%-dan çoxu “yüngül” və “azqatranlı” kimi aldadıcı və ya yanlış məlumat verən və sağlamlıq üçün hər-hansı zərəri azltmayan qablaşdırma terminlərin istifadəsinin qarşısı alınmayan ölkələrdə yaşayır.

## Fakt 9

**MPOWER, siyasət 5:** tütünün reklamına, stimullaşdırılmasına və sponsorluğuna qoyulan qadağaların gücləndirilməsi
Dünyada uşaqların demək olaraq ki, yarısı tütün məhsullarının açıq yayılmasını qadağan etməyən ölkələrdə yaşayır. Reklama qadağaların qoyulmasından əvvəl və sonra ölkə səviyyəsində aparılan araşdırmalar göstərir ki, həmin qadağalar tütündən istifadəni 16%-dək azaldır.

## Fakt 10

**MPOWER, siyasət 6:** tütün məmulatlarına qoyulan vergilərinin artırılması
Tütün məmulatlarına qoyulan vergilərin 10%-dək artırılması ümumiyyətlə tütündən istifadəni gəlir səviyyəsi yüksək olan ölkələrdə 4%, aşağı və orta olan ölkələrdə isə 8% azaldır. Tütünün qiymətinin 70% artırılması, dünyada olan tütünçəkənlər arasında ölüm hallarının 25%-nin qarşısını ala bilər.

http://www.who.int/features/factfiles/tobacco_epidemic/en/index.html